# "Muğamat var olan yerdə"

Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Mədəniyyət Nazirliyi tərəfindən iyul ayı üçün musiqi kollektivlərinin regionlara qastrol səfərləri davam edir.



Bu çərçivədə Beynəlxalq Muğam Mərkəzinin solistləri iyulun 22-də Biləsuvar rayonunda yerləşən Cəbrayıl rayon Mədəniyyət evində "Muğamat var olan yerdə" adlı konsert proqramı ilə çıxış ediblər.

**səh. 5**

# “Muğamat var olan yerdə”

## BMM-in solistləri Biləsuvarda müvəqqəti məskunlaşan cəbrayıllılar qarşısında çıxış ediblər

Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində Mədəniyyət Nazirliyi tərəfindən iyul ayı üçün musiqi kollektivlərinin regionlara qastrol səfərləri davam edir.





Bu çərçivədə Beynəlxalq Muğam Mərkəzinin (BMM) solistləri iyulun 22-də Biləsuvar rayonunda yerləşən Cəbrayıl rayon Mədəniyyət evində “Muğamat var olan yerdə” adlı konsert proqramı ilə çıxış ediblər.

Biləsuvarda müvəqqəti məskunlaşan Cəbrayıl rayon sakinləri üçün təşkil olunan konsertdə Əməkdar artistlər İlkin Əhmədov, Ehtiram Hüseynov, xanəndələr Kamilə Nəbiyeva və Günay İmamverdiyeva muğam və təsniflər, xalq mahnılarımızı səsləndiriblər.

4 saylı Cəbrayıl qəsəbə klubunda reallaşan konsertdə xanəndələri Rəşad İbrahimov (tar), Əməkdar artistlər Toğrul Əsədullayev (kamança), Kamran Kərimov (nağara), Çinarə Heydərova (qanun) müşayiət ediblər. Bütün ifalar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Sakinlər incəsənət layihəsinə görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

BMM-in direktoru Əməkdar artist Sahib Paşazadə Mədəniyyət Nazirliyi tərəfindən təşkil edilən qastrol səfərlərinin regionlarda yaşayan əhalinin asudə vaxtının səmərəli təşkili baxımından əhəmiyyətini vurğulayıb. Qeyd edilib ki, bu qəbildən konsertlər yerlərdə mədəni mühitin canlanmasına da bir töhfədir.

**Lalə Azəri**